AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**DİRƏXŞAN MƏHƏMMƏDƏLİ OGLU HİDAYƏTİFƏRD**

# GİLAN TAYFALARININ TARİXİ (QƏDİM DÖVRLƏRDƏN BU GÜNƏDƏK)

**İxtisas: 5502.01 –Ümumi tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dssertasiyanın

# AVTOREFERATI

**BAKI – 2016**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutunun "Farsdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**
*Tarix üzrə elmlər doktoru, professor* **Ş.F.Fərzəliyev**

**Rəsmi opponentlər:**
**Əməkdar elm xadimi,**
*Tarix üzrə elmlər doktoru, professor* **T. T.Mustafazadə**
Tarix üzrə fəlsəfə doktoru, dosent **R.B.Aslanov**

**Aparıcı müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01– "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_30__"__03___ 2016-cı il tarixli iclasında saat ____ keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri , H.Cavid prospekti ,115

Dissertasiya ilə Azərbaycan AMEA-nın A.Bakıxanov adiına Tarix İnstitutunun Arxivində tanış olmaq olar.

**Avtoreferat** "____" "______________" 2016-cı ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
Tarix üzrə fəlsəfə doktoru: **C.Ə.Bəhramov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Xəzər dənizinin cənubunda yerləşən Gilan bölgəsi öz təbiəti və əhalisinin tərkibinin rəngarəngliyi ilə seçilən ərazilərdəndir. Bölgənin hazırki etnik durumunun tarixi formalaşma prosesinin öyrənilməsi Gilan tarixinə daha diqqətli yanaşma tələb edir. Tarix elmi ötən dövrlərlə müasir zaman arasında özünəməxsus əlaqə yaradır. Bölgənin tarixinin tədqiqi buradakı etnik müxtəlifliyin zaman-zaman dəyişərək indiki vəziyyətinə necə gəlməsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qəbilə, tayfa və xalqlar arasında çoxəsrlik əlaqələr tarixinin tədqiqi tarix elmi qarşısında duran başlıca vəzifələrdəndir. Belə tədqiqat işinin aparılması elmdə "mədəniyyət" adlı fenomeni dərindən anlamaq imkan verir. Bir çox sirr və izləri tarixin dərinliklərində itmiş, hazırda da mövcud olan müxtəlif tayfa və xalqlar haqqında daha ətraflı məlumatlar əldə edilərsə, onların etnopsixologiyasında və xarakterlərindəki ümumi və fərqli cəhətlər daha aydın müəyyən edilə bilər. Təqdim olunan dissertasiya işində tarix elmində ilk dəfə olaraq qədim zamanlardan müasir dövrədək Gilanda yaşamış müxtəlif tayfa və xalqlar haqqında əldə edilən məlumatların araşdırmasına cəhd olunmuşdur. Bu dissertasiyada əsrlər boyunca Gilanda baş vermiş etnik proseslər, həmin proseslərin nəticələri barədə elmi məlumatlar təqdim edilir. Tədqiqatda arilər gələnədək Gilanda mövcud olmuş tayfaların da tarixi nəzərdən keçirilir. Xəzər dənizinin sahilləri istisna olmaqla, cənub ərazilərində bu tayfa və xalqların axtarışı bu günədək kompleks və sistemli şəkildə aparılmamışdır. Təqdim olunan tədqiqat işinin mühüm cəhəti ondan ibarətdir ki, burada ilk dəfə olaraq Gilan bölgəsində qədim dövrlərdən bu günədək yaşamış müxtəlif tayfaların və xalqların tarixi kompleks şəkildə araşdırılır. Həmin bölgədə arxeoloqlar tərəfindən aparılmış qazıntı işləri və elmi araşdırmalar nəticəsində əldə edilmiş tarixi sənəd və faktlara əsasən burada qədim xalqların məskunlaşdığı sübuta yetirilir. Tədqiqat obyektinə çevrilmiş tayfaların və xalqların erkən vətəninin müəyyən olunması, onların həyat tərzi, tarixi təkamülünün xüsusiyyətləri, həmin xalqların mədəniyyətinin təşəkkülünə təsir etmişdir. Dissertasiya işində Gilanda yaşamış və hazırda mövcud olan etnosların tarixi təkamül prosesinin öyrənilməsi, həmin xalqlar haqqında tarixi məlumatların toplanması və təhlili gələcək tədqiqat işlərinin təməli ola bilər. Problemin tədqiqi zamanı Gilanın tarixi reallıqlarının formalaşmasında coğrafi amilin də mühüm əhəmiyyət kəsb etməsi nəzərə alınmış, bölgənin təbii-

coğrafi şəraiti də öyrənilmişdir. Araşdırılan mövzu həmişə aktuallıq kəsb etsə də tarixşünaslığın diqqətindən kənarda qalmışdır.

**Tədqiqatın xronoloji çərçivəsi:** Təqdim olunan dissertasiyada başlıca tədqiqat obyekti Gilanda yaşayan tayfaların tarixidir. Tarixşünaslıqda qədim zamanlardan müasir dövrədək Gilanda yaşayan tayfaların tarixi haqqında kompleks tədqiqat işi aparılmamışdır. Məhz bu səbəbdən də biz bu bölgədə yaşayan tayfaların tarixini öyrənilməsini yuxarıda qeyd olunan geniş xronoloji çərçivədə nəzərdən keçirmişik. Dissertasiyada Gilan ərazisində tayfa və xalqların təkamül tarixi qədim zamanlardan müasir dövrümüzədək izlənilmiş və araşdırılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi:** İran tədqiqatçıları və digər ölkələrin alimləri insanların Xəzər dənizi sahillərində, o cümlədən Gilanda məskunlaşmasına dair müxtəlif fikirlər irəli sürmüşlər.

Avropalı J. De Morqanın XX əsrin əvvəllərində, həmin əsrin ortalarında ABŞ arxeoloq və antropoloqları Karleton Stivens Koon və C.Smitin Xəzər dənizi ətrafında apardıqları qazıntılar nəticəsində bu ərazilərdə insan məskənlərinə aid olan maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Bu mədəni təbəqədən əldə edilmiş nümunələrin on min illər öncəyə aid olduğu da müəyyən edilmişdir[1]. Filadelfiya Universitetinin professoru Karleton Stivens Koonun rəhbərliyi altında fəaliyyət göstərmiş elmi heyət 1951-ci ildə Xəzər dənizinin cənub sahillərində yerləşən “Hutu” adlı mağarada daşlaşmış insan sümüklərini aşkar etmişdir. Bu tapıntılar alimlərə insanların bu ərazidə minilliklər öncə yaşadıqları barədə fikir söyləmək imkanı verdi. Həmin elmi heyət “Hutu” insanlarının müasir tipli insanların birbaşa əcdadları olmaları haqda ehtimalı da irəli sürmüşdü[2]. Arnold Vilson qeyd edir ki, müasir dövrdə “İran” coğrafi məkanında ilk məskunlaşma məhz Gilanda və Mazandaranda baş vermişdir[3]. Tədqiqatçıların digər qismi isə Xəzər dənizi hövzəsinin Əlbors (Elbrus) dağları üzərində qalmış iz və nişanələrinə əsasən dənizin quruma prosesinin son 15-17min il ərzində getdiyini göstərir, Gilanda və Xəzər dənizi sahillərinin bir çox ərazilərində insanların məskunlaşmasının məhz bu proses başa çatdıqdan sonra baş verdiyini iddia edirlər. Bəzi tədqiqatçılar, o cümlədən Henri Fild isə belə bir ehtimal irəli sürmüşdür ki,

[1] سرتیپ پور، جهانگیر،نشانی هایی از گذشته دور گیلان و مازندران،تهران:خرمی،1356،ص8
[2] اصلاح عربانی،ابراهیم،کتاب گیلان،جلد2،تهران:گروه پژوهشگران ایران، 1374، ص20
[3] اصلاح عربانی،ابراهیم،کتاب گیلان،جلد2،تهران:گروه پژوهشگران ایران، 1374، ص19

Gilan və Mazandaran 4 min il bundan öncə şumerlərin məskunlaşdığı ərazilər olmuşdur.[4]

Tədqiqatçıların qədim dövrlərdən bu günədək Xəzər dənizi ətrafında yaşayan tayfa və xalqlar barədə irəli sürdükləri fikirlər və ehtimallar olduqca çoxdur. Antik dövr müəllifi Strabon qeyd edirdi ki, Xəzər dənizinin sahilləri “kasların (kaspilərin – D.H.) əsil vətəni olmuşdur”[5]. O, kasların hərəkət etdiyi yolları qeyd edərkən bu yolların “Xəzər dənizi sahillərindən tutmuş Zaqrosun qərb hissəsinə qədər olan ərazilərdən keçdiyini” göstərmişdir.[6] Qədim yunan tarixçilərinin bir qismi Xəzər dənizi sahillərində məskunlaşmış Gilan tayfalarından bəhs edərkən hal-hazırda gilanlıların yaşadıqları məntəqələri onların yerləşdiyi məkan kimi təqdim etmişlər[7]. Eramızın I əsrində yaşamış Polin belə hesab edirdi ki, “glae tayfası elə həmin kadusilərdir”[8]. Məşhur Rusiya şərqşünası V.V. Bartold «İranın tarixi coğrafiyası» adlı kitabında yazırdı ki, qədim zamanlarda Gilan torpaqlarında məskunlaşmış xalq, məhz Kadusilər idi. Həmin xalq və yaxud bu xalqın bir qrupu “Gil tayfası” adlanırdı. V.V. Bartold buna əlavə edərək yazmışdı: «Həmin torpaqların şərq hissəsində mardlar, yaxud amardlar məskunlaşmış və buna görə də Sefidrud çayı da “Amardus” adlandırılmışdı»[9]. Ibrahim Purdavudun (1885-1960) “Touzihati – coğrafiyayi” [10] əsəri Gilan ərazisinin coğrafiyasına aiddir.

Səid Nəfısinin (1895-1966) “Tarixe - İctimaiye İran” (“İranın ictimai tarixi”)[11] əsərində Gilanın ictimai tarixinə dair dəyərli məlumatlar mövcuddur.

Yuxarıda qeyd olunmuş əlyazma nüsxələri toplusundan başqa, İran İslam Cumhuriyyətində və xarici ölkələrdə qorunub saxlanılan digər əlyazma nüsxələrini də qeyd etmək olar. Həmin əlyazma nüsxələri daha çox siyasi tarixə aiddir və bu nüsxələrdə başqa tarixi hadisələrin şərhi yoxdur. Tarixin müxtəlif dövrlərində, o cümlədən Qacarlar dövründə yaşamış (1796-1925) hökmdarların məktublarını belə sənəd-

---

4 هنری فیلد،مردم شناسی ایران،ترجمه دکتر عبدالله فریار،انتشارات ابن سینا،1343،ص153

5 سرتیپ پور، جهانگیر،نشانی هایی از گذشته دور گیلان و مازندران،تهران:خرمی، 1356,ص. 68

6 اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2،تهران:گروه پژوهشگران ایران،1374, ص . 20 ;
دیاکونف،ا، م ، تاریخ ماد ، ترجمه کریم کشاورز ، تهران:علمی و فرهنگی،1377, ص . 54

7 خودزکو،الکساندر، سرزمین گیلان،ترجمه سیروس سهامی،تهران:پیام ,1354,ص. 17-18

8 ستوده ، م،از آستارا تا استر آباد،تهران، انجمن آثار ملی،1349, ص . 35 ; Yenə orada

9 اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2،تهران:گروه پژوهشگران ایران،1374, ص . 25

10 پورداوود،ابراهیم،یشتها،جلد اول ودوم،تهران: اساطیر ، 1377

11 نفیسی،سعید،تاریخ اجتماعی ایران ( در دوران پیش از تاریخ و آغاز تاریخ ) تهران: دانشگاه تهران،1342

lər sırasına daxil etmək olar. Həmin əlyazma sənədlərinin bəzilərində çox dəyərli məlumatlar mövcuddur. Mustafa Dirayəti İran əlyazmaları siyahısına dair 13 cilddə bir əsər nəşr etdirmişdir. Bu əsər İran İslam Şura Məclisinin Muzey və Sənədlər Mərkəzi kitabxanası tərəfindən nəşr olunmuşdur. Həmin əsərdə bütövlükdə İran tarixinin tədqiqi, şərhi təqdim edilmişdir.[12]

Hər bir elmi işin dəyəri və mötəbərliyi müəyyən bir problemin müxtəlif maraqlar müstəvisindən deyil, obyektivcəsinə tədqiq edilməsindən asılıdır. Təqdim olunan tədqiqat işində müxtəlif tayfa və xalqlar tarixinin bir çox mötəbər mənbələrdə mövcud olan məlumatlar əsasında araşdırılmasına səy edilmişdir. Gilanda yaşamış tayfalar barədə elmi faktların əldə edilməsi üçün yalnız farsdilli mənbələr kafi sayıla bilməz. Buna görə də araşdırma gedişində Azərbaycan türkcəsində, həmçinin rus və ingilis dillərində olan mənbələrdən və elmi ədəbiyyatdan da istifadə edilmişdir. Tədqiqat gedişində Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun kitabxanasında, AMEA-nın əsaslı kitabxanasında, İran İslam Respublikasının bir çox universitetlərinin (Tehran, Gilan, Təbriz və Şiraz) kitabxanalarında mövcud olan əlyazma nüsxələri və əsərlərdən, mötəbər İnternet saytlarının məlumatlarından istifadə olunmuşdur.

**Tədqiqatın mənbə bazası:** Gilan, orada məskunlaşmış əhali ilə bağlı olan yazılı mənbələr çox azdır. Qədim dövr, orta əsrlər haqqında yazmış müəlliflərin əsərlərinə müraciət edərkən məlum olur ki, Xəzər dənizi sahillərində, o cümlədən Gilanda yaşamış insan toplumları burada tarixin müxtəlif dövrlərində məskunlaşmışlar. Onların məskunlaşma tarixinin kökləri qədim zamanlara gedib çıxır.

Dissertasiya işində Gilanda yaşamış zərdüşti əhalinin inanc kitabı sayılan, qiymətli mənbə olan "Avesta"nın məlumatlarından yeri gəldikcə istifadə olunmuşdur.[13] Tədqiqat zamanı yunan və roma müəlliflərindən Heredot[14], Plutarx[15], Strabon[16] kimi tarixçilərin əsərlərinin

---

[12] دِرایتی،مصطفی،فهرست دست نوشته های ایران،کتابخانه موزه ومرکزاسنادمجلس شورای 1389 اسلامی،جلد اول تا سیزدهم،

[13] Spiegel F.Avesta. Die heilige Schrift der Parsen. Aus zein Grundtext ubersetztmit Rucksicht auf die Tradition. 1863.

[14] Herodotes. Historied, III XCII. VII, XXVII. Production de Larcher. Imp. Paul Dupont Paris: S.D: 1961;Herodot, II, 23;Herodot, III, 92

[15] پلوتارک،ا،حیات مردان نامی،ترجمه احمد کسروی،تهران سلسله،1363:

[16] Страбон. «География». Перевод Г.А. Стратановского. Москва, «Наука», 1964, 944 стр; Strabon, XI, 7, I; Strabon, XI,7,2

Gilan tarixinin qədim dövrü, burada yaşamış tayfaların fəaliyyətini əks etdirən dəyərli məlumatları elmi dövriyyəyə cəlb edilmişdir.

Gilan ərazisi və onun əhalisi haqqında əsas yazılı mənbələr sırasında ərəb dilində İbn əl-Əsir Əli ibn Məhəmməd (1160-1232) "Əl-Kamil fi-t-Tarix", yaxud "Tarixi Kamil ət-Təvarix"[17], Məhəmməd ibn Cərir ət- Təbəriyə (838-922) məxsus "Tarixi - Təbəri"[18], Əbu Abdullah Müqəddəsinin "Əhsən ət-təqsim fi məarifət əl-iqlim"[19] əsərləri tədqiqata cəlb edilmişdir.

Fars dilində olan qaynaq və əsərlərdən Əbdülfəttah Fumənin "Tarixi – Gilan"[20] (1526) əsəri də tədqiqatın mənbə bazasını zənginləşdirmişdir.

Zahirəddin ibn Nəsirəddin Mərəşinin(1412-1487) "Tarixi - Təbəristan və Ruyani Mazəndaran"[21] əsərində Gilan və burada baş vermiş tarixi hadisələr haqqında müxtəsər məlumatlar təqdim edilir. Təqdim olunan dissertasiya işində qədim dövrdən bu günədək yaşamış tayfaların tarixi haqqında məlumatlar toplanaraq araşdırılmış, "tayfa" və "qəbilə" fərqləri nəzərə alınmadan "Gilan ərazisində məskunlaşmış xalqın" tarixi nəzərə çatdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin başlıca məqsədi Gilanda yaşayan tayfa və xalqların tarixini xronoloji ardıcıllıqla araşdırmaq, bu etnik mühitdə gedən proseslərdə baş vermiş dəyişiklikləri izləmək olmuşdur. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri sayılmışdır:

- Gilanda yaşayan tayfaların erkən yaşayış məskənlərinin aşkar edilməsi;
- Gilanda tarixən yaşamış ilkin tayfaların müəyyən edilməsi ;
-Gilanda məskunlaşmış müxtəlif tayfalar arasında əlaqələrin xarakterinin müəyyən edilməsi;
- Gilan tarixində "unudulmuş" tayfaların dəqiqləşdirilməsi;
- tarixi faktlar əsasında bəzi tayfaların assimilyasiyaya uğrama səbəblərinin aşkara çıxarılması;
- Gilan ərazisində yaşayan müasir xalqların müəyyən edilməsi, onların məskunlaşma tarixinin öyrənilməsi;

---

17 ابن اثیر،عزالدین، تاریخ الکامل،جلد دوم:،تهران ، اسلامیه 1374
18 طبری،محمد بن جریر،تاریخ طبری،ترجمه ابوالقاسم پاینده،تهران:ترجمه و نشرکتاب، 1360
19 مقدسی،ابو عبدالله،احسن التقاسیم فی معرفت الاقالیم ،ترجمه علینقی منزوی،تهران:شرکت مولفان، 1361
20 فومنی،عبدالفتاح،تاریخ گیلان،تهران:فروغی،,1352
21 مرعشی،سیدظهیرالدین، تاریخ طبرستان و رویان و مازندران،به اهتمام برنهارد دارن، تهران، 1363 انتشارات نشر گسترده

- Gilan bölgəsində yaşayan tayfa və xalqların fərqli xususiyyətlərinin araşdırılması.

**Dissertasiya işinin metodoloji əsası:** Dissertasiya işində qarşıya qoyulmuş elmi problemin öyrənilməsi zamanı mövzu tarixi konkretlik metodu baxımından tədqiq edilmiş, bu və ya digər etnik proses baş verdiyi zamanın xüsusiyyətləri çərçivəsində nəzərdən keçirilmiş və təhlil edilmişdir.

Faktların araşdırılması zamanı tənqidi – analitik metoddan istifadə edilmiş, qarşılıqlı – müqayisə, təhlil və faktların tutuşdurulması əsasında verilən məlumatların həqiqiliyi yoxlanılmışdır.

Tədqiqat zamanı hadisələr arasında səbəb-nəticə əlaqəsinin axtarılması da diqqət mərkəzində olmuşdur. Tarixi faktlar tənqidi yanaşma yolu ilə seçilib ümumiləşdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Təqdim olunan dissertasiya işi qədim Gilan bölgəsində yaşayan tayfa və xalqların tarixinə qısa ekskurs hesab edilə bilər. Gilanda yaşayan tayfa və xalqların qədim zamandan müasir dövrədək olan tarixinin ilk dəfə olaraq kompleks tədqiqata cəlb olunması araşdırma işinin başlıca elmi yeniliyidir. Bu mövzu ilə bağlı bir çox mənbələr və sənədlər çox çətinliklə əldə olunmuşdur.

- Gilanda yaşayan tayfaların erkən yaşayış məskənləri müəyyən edilmişdir. Gilan bölgəsində yaşayan qədim tayfaların tarixini daha dərindən dərk etmək, daha aydın təqdim etmək üçün onların məskunlaşdığı dağlıq ərazilərə səfərlər etdik. Lakin orada həmin xalqların nümayəndələrinin qalmaması faktı ilə qarşılaşdıq. XX əsrin ortalarında əsasən əcnəbi arxeoloqların "tədqiqat apardığı" məkanlarda isə mənfəət güdən dairələrin, şəxslərin maddi mədəniyyət numunələrini talan etməsi, ölkə xaricinə aparılması faktları ilə üzləşdik.

- Qeyd etmək lazımdır ki, dissertasiya işində Gilanda yaşamış və yaşayan tayfaların, xalqların tarixi müxtəlif yazılı qaynaqlarda öz əksini tapmış ilkin coğrafi bölgülər əsasında tədqiq edilmişdir. Gilanda tarixən yaşamış qədim tayfaların – Kas, Gil, Qal, Deyləm, Kadusi, Tal, Mard, Saka, Dərbik olduqları müəyyən edilmişdir.

- Gilan ərazisində müasir dövrdə yaşayan xalqlar – türklər, kürdlər, lurlar, Rəşt tayfaları müəyyən edilmiş, onların məskunlaşma tarixinə aydınlıq gətirilmişdi.

-tarixi faktlar əsasında bəzi tayfaların assimilyasiyaya uğrama səbəbləri aşkara çıxarılmışdır. Miqrasiyalar və köçürmələr nəticəsində müxtəlif etnik toplumlar bir-biri ilə qaynayıb-qarışmış, assimilyasiya prosesləri baş vermiş yeni tayfa və etnoslar meydana çıxmış, daha

uzun müddət ömür sürə bilmişlər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqat işinin mühüm nəzəri və praktik əhəmiyyəti vardır. Dissertasiya işinin nəticələri və əsas müddəaları çərçivəsində nəzəri və təcrübi əhəmiyyəti aşağıdakılardır:

- Gilanda məskunlaşmış müxtəlif tayfalar arasında əlaqələrin xarakteri müəyyən edilmişdir. Arilərin gəlişi nəticəsində yerli tayfa və xalqların assimilyasiyaya uğradıqları müəyyən edilmişdir. Səfəvilər dönəmində kürd tayfalarının da əraziyə yerləşdirilməsi bölgənin etnik durumuna təsir göstərmişdir.
- Gilan tarıxi nəzərdən keçirilmiş, Qavbareqan, Dabugilər, Costanilər (Ali-Vəhsudilər), Müsafirilər (Salarilər, Kəngərilər), Kiyayi seyidləri, Ali- Buveyhilərin sülalələri və dövlətləri barədə qısa məlumat verilmişdir.
- Gilan tarixində ilk dəfə olaraq "unudulmuş" tayfalar dəqiqləşdirilmişdir. Anariak, Babr, Dokovizin tayfalarından bir çoxunun hal-hazırda yalnız adı qalmışdır. Bu tayfalara və xalqlara aid olan maddi mədəniyyət nümunələri isə dünyanın müxtəlif muzeylərində, şəxsi kolleksiyalarda, pərakəndə şəkildə mövcuddur. Bu nümunələr Gilan sakinlərinin həyat və məişətinin izlərini özündə əks etdirir. Araşdırma gedişində əldə etdiyimiz nəticələr bir çox unudulmuş, haqqında az məlumat olan xalqların həyatının və tarixinin tədqiqinə yeni təkan verə bilər.
- Gilan bölgəsində yaşayan tayfa və xalqların fərqli xüsusiyyətləri araşdırılmışdı.
- Dissertasiya müəllifinin Qal tayfası ilə bağlı olaraq nəşr olunmuş tədqiqat əsərləri əsasında bir neçə kinofilm də çəkilərək tamaşaçılara təqdim edilmişdi. Xalqların müasir həyatı ilə tarixi arasında üzvi, canlı bağlılıq mövcuddur. Tayfalar və xalqlar öz tarixindən nə qədər uzaqlaşsalar da keçmişə "baxış, özünə qayıdış və özünüdərk prosesində mühüm rol oynayır. Bu baxımdan dissertasiyanın ideoloji əhəmiyyəti olduqca böyükdür.
- Dissertasiyanın materiallarından həmçinin Gilan tarixi ilə bağlı olan əsərlərin yazılmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya işi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutun Elmi şurasında təsdiq edilmiş, İnstitutun "Farsdili əlyazmaların tədqiqi" şöbəsində icra olunmuş, müzakirə edilərək müdafiəyə təqdim olunmuşdur. Dissertasiya işinin başlıca müddəaları müəllifin müxtəlif elmi nəşrlərdə çap olunmuş

elmi məqalələrində, elmi-nəzəri konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**" hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın işlənmə dərəcəsi şərh edilmiş, dissertasiyanın məqsəd və vəzifələri nəzərə çatdırılmış, tədqiqatın nəzəri və metodoloji əsasları, elmi yeniliyi və elmi-praktik əhəmiyyəti şərh edilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Gilan miladdan əvvəlki dövrdə"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdi. ***"Gilanın və Gilan tayfalarının tarixinin yazılı mənbələrdə əksi və elmi ədəbiyyatda tədqiqi səviyyəsi"*** adlanan birinci yarımfəsildə Gilan və orada məskunlaşmış əhali ilə bağlı yazılı mənbələrin azlığı diqqətə çatdırılmışdır. Burada Gilan ərazisi və Gilan tayfaları tarixinin yazılı mənbələrdə əksi və elmi ədəbiyyatda tədqiqi səviyyəsi araşdırılmışdır. ***"Gilan ərazisinin coğrafi mövqeyi və təbiətinin xüsusiyyətləri"*** adlanan ikinci yarımfəsildə şərh edilir. Gilan əyaləti 36 dərəcə 34 dəqiqə şimal uzunluq dairəsi, 38 dərəcə 27 dəqiqə şərq en dairəsi olan ərazidə yerləşir. Bu isə həmin əyalətin Yer kürəsinin şimal yarımkürəsinin mülayim qurşağında yerləşdiyini göstərir. Bu əyalətin qərb tərəfdən ən ucqar sərhəddi Qrinviç meridianından 48 dərəcə 53 dəqiqəlik məsafədə, şərq tərəfdən ən ucqar sərhəddi isə həmin meridiandan 50 dərəcə, 34 dəqiqəlik məsafədədir.[22] Gilan əyaləti İranda ən çox yağış yağan məntəqələrdən biri hesab olunur. Həmin əyalətin tam mərkəzi hissəsində yerləşən Rəşt şəhəri bu baxımdan daha çox fərqlənir. Gilan əyalətini İranın digər əyalətlərindən fərqləndirən digər iqlim xüsusiyyətlərindən biri də burada havanın çox rütubətli olmasıdır. Belə ki, 30 ilin orta hava rütubəti haqqında məlumata görə gecənin və gündüzün iki müxtəlif saatlarında ( yəni saat 6/30 da və 11/30-da) Gilan əyaləti İranın mərkəzi əyalətləri arasında ən çox rütubətə malik məntəqədir[23].

---

[22] اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2،تهران:گروه پژوهشگران ایران،1374 , ص .7

[23] عظیمی دوبخشری ،ناصر،جغرافیای طبیعی گیلان،رشت :فرهنگ ایلیا ،1385 , ص .52-54
دیاکونف،ا، م ، تاریخ ماد ، ترجمه کریم کشاورز ، تهران:علمی و فرهنگی ، 1377 ,ص . 36

***"Midiya imperiyası dövründən Əhəmənilər dövrünədək Gilanda yaşamış tayfalar"*** adlanan üçüncü yarımfəsildə qeyd olunur ki, miladdan öncə ilk yüzilliklərdə Gilan ərazisi müxtəlif qədim, yerli xalqların məskunlaşdığı məkan olmuşdur. Ari tayfalarının İran yaylasına köç etdiyi zamanda bu ərazilərdə yerli tayfalar yaşayırdı. Həmin dövrdə ərazinin qərbində "Kas-Su-ke" adlanan tayfa yaşayırdı ki, yunanlar (ellinlər) onları "Kusilər", yaxud "Kisi" adlandırırdılar. İranın cənub bölgələrində isə Elamilər, Gilanda Kadusilər və Kasilər, Mazandaranda Tapurilər, Kadusilərlə Tapurilərin arasında isə Amardlar və yaxud Mardlar yaşayırdılar.[24] Tarixi məxəzlərdə qədim dövrlərdə Gilan bölgələrində digər tayfa və xalqların da (Ənarilər, Dokovzininlər və Dərbiklər) məskunlaşmasına dair məlumatlar vardır. Gilanda Kadusilərin meydana gəldiyi dövrdə "Gel", yaxud "Gelan", "Deyləmilər" kimi tayfaların adları çəkilmirdi. Həmin dövrdə onlar az əhəmiyyət kəsb etmiş tayfalardan olmuşlar. Guman ki, Sasani imperiyası dövründə (224-651) həmin tayfalar Gilanda Kadusiləri əvəz etmişlər Əskanilər (Parfiya, Azşəkilər) imperiyası dövründə Gilanda yaşayan tayfalar adlanan dördüncü yarımfəsildə Midiya imperiyasının (m.ö.708-550) meydana çıxması ilə Gilanda məskunlaşmış qədim tayfalar (Kadusilər və s.-D.H.) üçün problemlərin yaratmasından danışılır. Güman edilir ki, Midiyalılarla Kadusilər arasında əhəmiyyətli qarşıdurma olmamış, Midiyalılar Kadusilərin müstəqilliyinə hörmətlə yanaşmış, onlara müstəqil xalq kimi baxmışlar. Əhəməni imperiyasının təşəkkülü prosesində Kadusilər daimi narahatlığı aradan qaldırmaq və Midiya dövlətini süquta uğratmaq üçün II Kuroşa (Kirə-D.H.) (m.ö.550-522 ) yardım etmişlər. M.ö. 331-ci ildə, III Daryuşun (Daranın-D.H.) dövründə (m.ö.336-331) Makedoniyalı İsgəndərin Əhəməni imperiyasının ərazilərinə hərbi yürüşü zamanı Kadusilər ölkəni müdafiə etmək üçün minlərlə döyüşçü ilə Əhəməni qoşununun tərkibində iştirak etmişlər.[25] Makedoniyalı İsgəndərin dövründən Selevkilərin hakimiyyətinin sonunadək (m.ö.312-m.ö.256) Kadusilər müstəqil, yaxud yarımmüstəqil halda yaşamışlar. ***"Əşkanilər (Parfiya, Arşakilər) imperiyası dövründə (m.ö.250-224) Gilanda yaşamış tayfalar"*** adlanan dördüncü yarımfəsildə belə nəticəyə gəlmək olar ki, Əşkanilər (Parfiya, Arşakilər) imperiyası dövründə (m.ö.250 – m.224) Qorqan

---

[24] پیرنیا،حسن، ایران باستان، جلد اول و دوم، تهران: دنیای کتاب، ص . 156

[25] ستوده ، م،از آستارا تا استر آباد،تهران، انجمن آثار ملی، 1349, ص . 327

sərhədlərində baş vermiş bir neçə hadisə istisna olunmaqla Xəzərsahili ərazilərin vəziyyəti haqqında heç bir məlumat yoxdur[26]. Bu dövrü sonrakı tarixi dövrlərlə müqayisə etməklə qeyd etmək olar ki, ya Parfiya hökmdarları Əlbors (Elbrus) dağlarının şimal ərazilərində yaşayan əhali üzərində heç bir nüfuza malik olmamış, ya da bunun təsiri çox az olmuşdur.

Dissertasiya işinin ikinci fəsli **"Gilan miladdan sonrakı dövrdə"** adlanır. Bu fəsil doqquz yarımfəsildən ibarətdir. ***"Sasanilər"*** adlanan birinci yarımfəsildə göstərilir ki, Şahənşah I Ərdəşirin hakimiyyəti dövründə Peteşxargərin (Gilan) hökmdarı Geşənsb (yaxud Ceşənsb-D.H) olmuşdur. I Ərdəşir öldükdən sonra miladın 241-ci ilində I Şapur(241-272) Sasani şahənşahı oldu. O, ağır döyüşlərdən sonra gilanlılara qalib gəldi və imperiyanın şimal sərhədlərində öz mövqeyini möhkəmləndirdi[27]. Bundan sonra o, I Bəhramı Gilanın və Xəzər sahili əyalətlərin hakimi təyin etdi və ona "Gilanşah" titulunu verdi. Sasani şahənşahı III Bəhramın hakimiyyəti dövründən I Yəzdigərdin hakimiyyətinin sonunadək (m. 293-420) olan ilkin mənbələrdə Gilan tayfaları ilə bağlı olan müəyyən bir əhəmiyyətli məlumat yoxdur. Sasani dövrünə aid olan mətnlərdə Gilan tayfaları əsasən "Gil" və "Deyləm" kimi xatırlanmışdır. Sasani şahənşahı I Xosrov Ənuşirəvanın hakimiyyəti dövründə (m.531-579) Yəmənin fəth edilməsi üçün göndərilən qoşunun tərkibində Kadusilər və Deyləmilər sərkərdə kimi iştirak etmişlər. II Qubadın hakimiyyəti dövründən V Xosrovun hakimiyyəti dövrünədək (m.629-631) tarixi mənbələrdə Gilan barədə məlumatlar nəzərə çarpmır. ***"Gilan ərəb fəthləri zamanında: Qavbareqan, Dabugilər, Costanilər (Ali-Vəhsudilər), Müsafirilər (Salarilər, Kəngərilər) Kiyayi seyidləri, Ali- Buveyhiləri"*** adlanan ikinci yarımfəsildə qeyd olunur ki, Gilanın dağ sakinləri ilə ərəblər arasında qarşıdurma əsrlər boyu baş vermiş, ərəblər bu tayfaları özlərinə tabe etmək üçün böyük çətinliklərlə qarşılaşmışdılar. Buna görə də onlar öz istehkamlarını Gilana yaxın olan bir ərazidə - Qəzvində yerləşdirdilər. Ərəblərin aramsız hücumlarından və Gilana nüfuz etməsindən sonra gilanlılar tədricən islam dininə rəğbət bəsləməyə başladılar. Ərəb xilafəti (630-1258) daxilində mübarizənin genişlənməsi, hərbi əməliyyatların Deyləm məntəqəsinə nüfuz etməsi nəticəsində ələvilərin Gilan əyalətinə pənah

---

[26] فرای،ر،ن،میراث باستانی ایران، ترجمه مسعود رجب نیا،تهران: ترجمه و نشرکتاب، ,1345 ,ص . 306
[27] کریستن سن،آرتور،ایران درزمان ساسانیان،ترجمه رشید یاسمی،تهران:امیرکبیر، ,1367 ,ص . 310

apararaq buraya sığınması, bölgədə bəzi dövlətlərin meydana gəlməsi üçün zəmin yaratdı. Dissertasiyanın bu hissəsində Qavbareqan, Dabugilər, Costanilər (Ali-Vəhsudilər), Müsafirilər (Salarilər, Kəngərilər), Kiyayi seyidləri, Ali- Buveyhilərin dövlətləri barədə qısa məlumat verilir. ***"Gilan Qəznəvilər və Səlcuqilər dövründə"*** adlanan üçüncü yarımfəsildə göstərilir ki, Səlcuqilər dövründə (1038-1157) də Gilan və Deyləm öz müstəqilliyini qoruyub saxlaya bildi, Qəznəvi sultanları - Sultan Mahmud Qəznəvinin və onun oğlu Sultan Məsud,sonra isə Səlcuq sultanları bu əraziləri ələ keçirə bilmədilər.

***"Gilan Hülakular (Elxanilər) dövründə"*** adlanan dördüncü yarımfəsildə Sultan Məhəmməd Ulcaytu(1304-1316) bu ərazini ələ keçirdi[28]. Onun ölümündən sonra Gilanın yenidən tam siyasi müstəqillik qazandığı şərh edilir. Gilan əmirləri Hülaku hökmdarlarına (elxanlara) xərac verməkdən boyun qaçırdılar. Sultan Məhəmməd Ulcaytudan sonra Gilan yenidən tam siyasi müstəqillik qazandı. Əmir Teymur Gurəkanın dövründə (1370-1405) də Gilan müstəqilliyini nisbətən qoruyub saxlamış və yalnız xərac ödəmişdir. ***"Gilan Səfəvi sülaləsi dövründə"*** adlanan beşinci yarımfəsildə qeyd olunur ki, Səfəvi sülaləsi hakimiyyətinin ilk dövründən I Şah Abbasın hakimiyyətinədək Gilan öz müstəqilliyini qoruyub saxlaya bilmişdi. O zaman bu bölgə kiçik hakimlər tərəfindən idarə edilirdi. Səfəvi şahları Gilana xüsusi diqqət yetirirdilər. Çünki «Səfəvi xanədanının nüfuz edə bildiyi və uğurlu təbliğat apardığı əsas mərkəz məhz Gilan olmuşdur».[29] I Şah Abbas Səfəvi (1597-1629) dövlətinin bütün ərazisində ciddi idarə sistemi yaratmışsa da bu zaman Gilan əyalətində üsyanlar və qiyamlar baş vermişdi. I Şah Abbas bu çıxışları yatırdı.

***"Gilan Əfşarlar və Zəndilər dövründə"*** adlanan altıncı yarımfəsildə XVIII əsrin əvvəllərində ipək istehsalı ilə bağlı olaraq ingilis və rus tacirlərinin bu bölgəyə maraq göstərməsi barədə məlumat verilir. Nadir şahın dövründə vergilərin həddindən çox olması, vergi zülmü nəticəsində onun imperiyasının bəzi bölgələrində, o cümlədən Gilanda əhalinin üsyan və qiyamların baş qaldırması ilə bağlı faktlar da burada öz əksini tapır. Bu yarımfəsildə Əliqulu xan Əfşarın ölümündən sonra Hacı Camal Məhəmməd Həsən xanın (1747-1759) Gilan və Mazandaranda hakimiyyəti ələ keçirdiyi qeyd edilir.

---

[28] 312. ص , 1374,
ابن اسفندیار،بهاء الدین محمد بن حسن،تاریخ طبرستان،به تصحیح عباس اقبال، تهران: کتابخانه اقبال،

[29] 101 . ص, 1374, اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2،تهران:گروه پژوهشگران ایران،

1751-ci ildə Kərim xan Zənd mərkəzi hakimiyyətə iddiasını bildirdi və Gilana hücum etdi. Onun Gilana daxil olduğunu görən Hacı Camal Məhəmməd Həsən xan və oğlu Ağa Məhəmməd xan Qacar buranı tərk etmişdilər. ***"Gilan Qacar sülaləsi dövründə"*** adlanan yeddinci yarımfəsildə qeyd olunur ki, Ağa Məhəmməd xan Qacar 1779-cu ildə Gilanda Hidayətullahın hakimiyyətinə son qoymaq üçün bu əyalətə hücum etmişdi. Ağa Məhəmməd şahın 14 illik hökmranlığı dövründə Qacar sarayının Gilanla əlaqələri yaxşı idi, çünki bu dövrdə tərəflər arasında qarşıdurma baş verməmişdir. Fətəli şahın dövründə (1797-1834) Rusiya imperiyası ilə müharibələr baş verdi. Hərbi əməliyyatların bir qismi də Gilanda oldu. Nəsirəddin şah Qacarın hakimiyyəti zamanı (1848-1896) isə yalnız rus gəmilərinin Ənzəli limanına girişinin qarşısının alınması diqqəti cəlb edir. Müzəffərəddin şahın hakimiyyəti dövründə(1896-1906) avropalıların (əsasən ingilislərin-D.H.) Qacar dövləti ərazisinə güclü nüfuzu nəticəsində Gilanda ticarət əlaqələri yeni vüsətlə inkişaf etməyə başladı[30]. Məhz bu tanışlıq sayəsində Gilan əhalisi Qərblə bağlı xeyli məlumat əldə etdi. Bu təsirdən Gilan əhalisi ölkədə Məşrutə hərəkatının ön sıralarında çıxış etdi. Məhəmmədəli şah Qacarın hakimiyyəti vaxtı (1907-1909) "Tehranın fəth edilməsi" hadisəsi xüsusilə diqqəti cəlb edir. ***"Gilan Pəhləvi hakimiyyəti dövründə"*** adlanan səkkizinci yarımfəsildə qeyd olunur ki, Pəhləvi sülaləsi hakimiyyətinin ilk dövründə Gilanda baş vermiş üsyan və qiyamlar müxtəlif səbəblər üzündən müsbət nəticələrə gətirib çıxarmadı. İranda 1936-cı ilədək olan dövr "Məmaliki-Məhrusiyyə"("Qorunan ölkə") adlanırdı. II Dünya müharibəsinin əvvəllərinə doğru ölkədə siyasi vəziyyət nisbətən dəyişdi. Gilan əhalisi mövcud quruluşa qarşı üsyana qalxdı. Doktor Müsəddiqin baş nazir olduğu dövrdə polisin və hərbi qüvvələrin əkinçilərlə rəftarı mülayimləşdi. O zaman 28 mordad 1332-ci (19 avqust 1953-cü) il çevrilişindən sonra İranda yeni ictimai-siyasi şərait bərqərar oldu.[31] ***"28 mordad çevrilişindən İslam inqilabınadək"*** adlanan doqquzuncu yarımfəsildə 28 mordad çevrilişi və Doktor Müsəddiqin Milli hökumətinin süqutundan sonra İranın bütün ərazilərində, o cümlədən Gilanda təzyiqlərin artmağa başlaması göstərilmişdir. 1977-ci ildən etibarən Gilanda Pəhləvi hakimiyyətinə qarşı fəaliyyət genişləndi və bir ildən sonra Gilan əhalisi Pəhləvi

---

[30] اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2،تهران:گروه پژوهشگران ایران، 1374ص . 101-103

[31] اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2 ,ص . 116

hakimiyyətinə qarşı çıxışlara, mitinqlərə və tətillərə başladı. Bu hadisələr zamanı bir neçə nəfər öldürüldü. 22 Bəhmən 1357-ci ildə (23 fevral 1979-cu il) İranda Pəhləvi hakimiyyətinə son qoyuldu. Gilan gəncləri də hərbi mövqelərə hücum edir, islam inqilabının qələbəsinə kömək göstərirdilər[32].

Dissertasiya işinin üçüncü fəsli **"Gilan tayfaları"** adlanır. Bu fəsil on iki yarımfəsildən ibarətdi. ***"Gil"*** adlanan birinci yarımfəsildə qeyd olunur ki, Xəzər dənizinin cənub sahillərində yaşamış qədim tayfalardan biri də Gil tayfasıdır. Gilan vilayətinin adı məhz həmin tayfanın adı ilə bağlıdır. "Gil" sözü pəhləvi dilində «Gel», ərəb dilində isə «Cil» şəklində, yunan yazılarında isə həmin ifadə «Glae» şəklində təqdim edilir. Bizim fikrimizcə, "Gil" ifadəsi dağlıq ərazidən düzənliyə köçmüş «Gal»tayfa adından yaranmış və sayı çox olmayan həmin tayfanın adı zaman keçdikcə "Gil" şəklinə düşmüşdür.[33] Rabinonun "Gilan hökmdarları" kitabında Gilan haqqında ayrı-ayrı nümunələr verilir: «Gil" sözünün mənalarından biri də "hakim", yaxud "hökmdar"dır, bu söz həmçinin "pəhləvan" və "cəngavər" mənasında da işlənmişdir[34]. Qeyd edək ki, bu iki tayfa mühacir (gəlmə -D.H.) ari tayfalarının əsrlər boyu qaynayıb-qarışması prosesində yaranmışdır. Gil və Deyləmi tayfaları (ilk növbədə Amardlar–D.H.) isə bütün bunlardan sonra - Əşkani (Parfiya Arşaki–D.H.) sülaləsinin hökmranlığı dövründə təzyiq nəticəsində Elbrus dağlarının arxa ətəklərinə köçmüş və tədricən öz qüdrətlərini itirmişdilər. Zaman keçdikcə onlar Gilanda öz əvvəlki qüdrətlərini bərpa edə bildilər. ***"Qal"*** adlanan ikinci yarımfəsildə Şumer sivilizasiyası bəşər tarixinin ən qədim və ən məşhur fenomenlərindən biri hesab olunduğu göstərilir. Bəşər tarixinin ən qədim və əfsanəvi dastanlarından olan «Gilqamış» da məhz Şumerlərdən yadigar qalmışdır. Mesopotamiyada aşkar edilmiş, Şumerlərə aid olan gil lövhələr bu qədim, sirli xalq haqqında bizə daha geniş məlumat verir. Tədqiqatçıların bir qrupu belə güman edir ki, Şumerlər İkiçayarası (Mesopotamiya) bölgəsinə müasir dövrdə "İran" adlanan məkanın şimal ərazilərindən köçmüşlər. Belə güman edilir ki, "Gilan" sözü Şumer əsilli Qal tayfasından əxs edilmiş və sonralar bu söz "Gil"ə, yaxud "Gilan"a

---

[32] Yenə orada, 119 . ص

[33] Hedayatifard. D. The Etymology of Gilaki Words. P. Russian State University for the Humanities. Moscow: 2006., p.87

[34] 172 . ص, 1366, رابينو،هـ ،ل ،ولايات و دارالمرز گيلان،ترجمه جعفر خمامی زاده،رشت ،انتشارات طاعتی،

çevrilmişdir. Tarixi mətnlərə istinad edərək Xəzər dənizinin cənub sahillərinin Sasanilər dövründən etibarən "Gil" və "Gilan" adlandırılması qənaətinə gəlmişik. Çünki bundan əvvəl bu ərazi "Deyləman" adı ilə tanınırdı. Gillər səhrada, Deyləmanlar isə dağlıq ərazilərdə yaşayırdılar. Tarixçilər Gil və Deyləm tayfalarının etnik mənsubiyyəti və mənşəyi haqqında bir-birinə zidd olan fikirlər irəli sürmüşlər. Amma gəldiyimiz qənaət ondan ibarətdir ki, hər iki tayfa Qal tayfası ilə bağlı olmuşdur. ***"Kaspi"*** adlanan üçüncü yarımfəsildə Antik dövr yazarlarının əsərlərində və qədim şərq mənbələrində Xəzər dənizinin sahillərində yaşayan digər tayfalarla yanaşı kaspilər barədə də məlumat vardır. Əsasən e.ə. I minilliyi əhatə edən bu məlumatlar Əhəməni imperiyasının (m.ö.550-330) hərbi yüksəlişində payı olan kaspilərin yayıldığı coğrafi arealı, təsərrüfat həyatını, adət-ənənələri, qonşu tayfalarla münasibətləri əks etdirir. Bundan əlavə, kaspilərin Xəzərdən şərqdəki ərazilərdə də məskunlaşdığına dair məlumatlara təsadüf olunur. Belə ki, Ptolomey Kaspilərin bir qrupunun Baktriya ilə Çin arasında yayıldığını göstərir. Kaspilərin bu qrupunu Kafiristan və Çitralda (Hindiquş dağlarının cənub ətəyində, Əfqanıstanla Hindistan sərhəddində) yaşayan xəzərilərin əcdadları hesab edirlər[35]. ***"Deyləm"*** adlanan dördüncü yarımfəsildə "Deyləm", "Deyləman" və "Deyləmistan" adlı tayfanın torpağı Gilan əyalətinin dağlıq hissəsinə, yəni Xəzər dənizinin sahil boyu hissəsi ilə Qəzvin arasındakı ərazilərə deyildiyi göstərilir. Deyləm bölgəsinin müxtəlif yerlərində aşkar olunmuş maddi mədəniyyət nümunələri Deyləm dağlarında ictimai-mədəni həyatın, və inkişafın hətta min il öncəyə qədər gedib çıxdığından soraq verir. Qədim Deyləm tayfaları barədə əlimizdə məlumat azdır. Lakin bunu söyləmək mümkündür ki, islamaqədərki dövrdə bu tayfa müstəqil şəkildə yaşamışdır. Deyləm xalqının dili barədə bəzi orta əsr tarixçilərinin(əl-İstəxri və əl-Müqəddəsinin) məlumatlarını nəzərdən keçirərkən aydın olur ki, həmin diyarda məskunlaşmış insanlar dövrün tarixçilərinə və coğrafiyaçılarına məlum olmayan dildə danışırmışlar. Gilan və Deyləman əhalisi islamdan öncə, əsasən Zərdüştiliyə bağlanmışdı. Deyləmilər sonralar güclü hakimiyyət qurdular. "Ali Buveyhi dövləti" kimi tanınan bu hakimiyyət İraqadək olan geniş əraziləri əhatə etmişdi. Nasir Kəbirin dövründə müxtəlif bölgələrdə islamın təbliğ olunması sahəsində xeyli iş görülürdü. ***"Tat"*** adlanan beşinci

---

[35] Дьяконов И.М. История Мидии: от древнейших времён до конца IV в. до. н.э. Москва-Ленинград: 1956., с.360

yarımfəsildə tatlar əsasən Azərbaycanda və Xəzər dənizinin sahillərində yaşayırlar. Dissertasiyada tatların dili hind-avropa dillərinin iran qrupuna aid olduğu göstərilir. Tatlar əsasən Azərbaycan Respublikasının Abşeron, Xızı, Şabran, Quba rayonlarında məskunlaşmışlar. Müasir tatlar Sasanilər tərəfindən IV əsrdə Azərbaycanın Xəzəryanı ərazilərinə köçürülmüş irandilli əhalinin varisləridir. Tatların Azərbaycan ərazisində məskunlaşma tarixinə nəzər saldıqda belə bir qənaətə gəlmək olar ki, sıx etnik, mədəni-məişət, təsərrüfat əlaqələri nəticəsində tatlar ilə Azərbaycan türkləri arasında etnomədəni birlik formalaşmışdır. Bu proses Azərbaycanda gedən etnik proseslərin ümumi mənzərəsini təşkil edib, təkcə tatlara deyil, eləcə də Azərbaycanda yaşayan digər etnik qruplara şamildir. 2009-cu ildə Azərbaycan Respublikasında keçirilmiş ümumimilli siyahıyaalmanın nəticələrinə görə tatların sayı 25 min nəfər təşkil etmişdir[36]. Tatlar barəsində belə bir qənaətə gəlmişik ki, bu mövzuya ehtiyyatla yanaşılmalıdır. Çünki Tatların ayrıca bir xalq, yaxud müəyyən dil qrupuna aid olan tayfa olduğu hələ də tam aydınlaşdırılmamışdır. Bu problemin həllini gələcək tədqiqatçıların öhdəsinə buraxırıq. Onlar bu konkret mövzu barəsində daha dəqiq və mötəbər müddəalar irəli sürə, yeni elmi nəticələr əldə edə bilərlər.

***"Kadusilər"*** adlanan altıncı yarımfəsildə göstərilir ki, Antik yazarların fraqmentar məlumatları əsasında Kadusi probleminin elmi araşdırılması uzun bir dövrü əhatə edir. Hələ 1875-ci ildə B.Dorn kadusiləri müasir Gilan və Deyləm vilayətlərinin qədim sakinləri kimi təqdim etmişdir. Z.Yampolski məqaləsində antik dövr müəlliflərinin bəzən kadusiləri «Gel» və «Leq» adları ilə təqdim etmələrini qeyd edir. Həmin tayfalar Qafqaz Albaniyasının ərazisində də qeydə alındığından, müəllif Albaniyanın (Azərbaycanın şimalı) və Atropatenanın (Azərbaycanın cənubu) əhalisinin əsasən eyni etnoslardan təşkil edilməsi barədə elmi qənaətə gəlmişdir[37]. Talışlarla Kadusilər arasında qohumluq əlaqəsi olmuşdur. Kadusilərin sirli tarixinin Talış xalqının tarixi ilə bağlılığı elmi tədqiqat işlərində tam şəkildə aydınlaşdırılmışdır.

Kadusilər vaxtilə Gilan ərazisində, Sefidrud çayının hər iki sahili

---

[36] Azərbaycanın demoqrafik göstəriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2013., s.54

[37] Ямпольский З.И. «К вопросу об одноименности древнейшего насиления Атропатены и Албании», /Труды ИИФ АН Аз.ССР,1954, т.4, с.67

boyunca uzanan meşəlik ərazilərdə məskunlaşmışdılar. Həmin bölgənin müxtəlif yerlərində hələ də mövcud olan yer adları da bunu subut edir və dissertasiya işində bu adlara da işarə olunmuşdur. V.Bartold Gilanın Xəzər sahilindəki düzənlik ərazilərində kadusilərin, dağlıq bölgəsində isə Deyləmlilərin məskunlaşdığını yazmışdır[38].

***"Talış"*** adlanan yeddinci yarımfəsildə Azərbaycan Respublikasının cənub-şərq hissəsində bu ərazilərin qədim sakinləri olan talışların yaşadığı bildirilir. Talışlar Tal tayfalarının varisləri hesab olunurlar[39]. B.V.Millerin 1925-ci ildə Talışda olmasına həsr olunmuş hesabatında bildirilir ki, "talış sözündə biz qədimdən bu ərazidə yaşayan bir tayfanın adını görürük. Fars tarixi mənbələrində Talışda türk tayfalarının olduğu da qeyd edilir ki, onların da monqol ordularının tərkibində Orta Asiyadan gəlmələri və Talis əyalətində məskunlaşmaları güman edilir. Hətta Xodzko bildirir ki, Gilan talışları şərqi türk dialektində danışırlar[40]."

Onlar müasir inzibati-ərazi bölgüsünə əsasən Lənkəran, Astara, Lerik və qismən Masallı rayonlarında məskunlaşmışlar. İran İslam Respublikası ərazisində isə talışlar kompakt şəkildə Xəzər sahillərinin həm ovalıq hissəsində, həm də onu qərb tərəfdən əhatə edən dağlıq hissəsində məskunlaşmışlar. Köhnə inzibati bölgüyə əsasən burada talışlar altı rayonda – Həmseyi-Tevaleş, Kərgənrud, Asalem, Taleş-Dolab, Şəndermin və Masalda yerləşmişlər. Gövhərrud rayonunun Çıraqəli təpəsində, Rudbar rayonunun Rəhmətabad kəndindəki təpələrdə qazıntı-kəşfiyyat işləri aparılarkən unudulmuş «Marlik mədəniyyəti"nə dair əşyaları tapılması öz əksini ***"Marlik"*** adlanan səkkizinci yarımfəsildə tapmışdır. Tədqiqatçılar həmin yer adının iki sözdən, yəni «Mard»dan və «lik» son şəkilçidən ibarət olduğunu söyləmişlər. Belə ki, "Mard" sözündən «d» səsi düşmüş, onun sonuna "tayfa" və "qəbilə" mənasını daşıyan «lək», yaxud «lik» sözü əlavə edilmişdir. Bir çox tədqiqatçılar Marlik tayfasının arilər və amardlarla eyni irqdən olduğunu söyləmişlər[41]. Qazıntılar nəticəsində e.ə. II minilliyin sonunda I minilliyin başlanğıcında yeni tayfa haqqında qiymətli məlumat əldə edilmişdir. 1962-1963-cü illərdə Tehran

---

[38]Бартольд В. Сочинения. Том VII. Москва 1971, с.215-217

[39] Алиев К. Древнегреческие и латинские первоисточники по истории древнего Азербайджана (с примерами нового толкования). Баку: 2010.,174, с.291

[40] Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı: Elm, 2000., s.29

[41] کامبخش،س،زرگری و سفالگری درآثارمارلیک،باستان شناسی و تاریخ،ش2 ,1374 , ص .128
،تهران،مرکز نشردانشگاهی

Universiteti və İran Arxeologiya Baş İdarəsi arxeloqları İzzətulla Nigəhbanın başçılığı ilə Marlik təpəsində qazıntı-kəşfiyyat işləri aparmışlar. Qazıntılarda tapılan ən qiymətli və məşhur əşya - qızıl camdır. Onun üzərində "həyat ağacı" həkk edilmişdir. Bu tapıntı da həmin dövrün insanlarının yüksək incəsənətə və təfəkkürə malik olduqlarını sübut edir.[42]

***"Saka"*** adlanan doqquzuncu yarımfəsildə qeyd olunur ki, Saka tayfaları çox qədim dövrlərdə Orta (Mərkəzi) Asiyadan və Çin Türküstanından Aral dənizinədək olan geniş məkanda, müxtəlif fasilələrlə Don və Dunay çaylarının arasında olan ərazidə pərakəndə şəkildə yaşamışlar.Onlar Azərbaycan tarixində də mühüm rol oynamışlar.[43] 1969-cu ildə Əli Hakiminin başçılığı ilə Gilanın Rudbar rayonunun Klorəz kəndində arxeoloji qazıntılar aparılmış və Sakalara aid olan bəzi maddi mədəniyyət nümunələri əldə edilmişdir. Skabon Amarlıda, Sefidrud çayının sahillərində, "Sakaça" və "Skulək" adlı yaşayış yerlərində də arxeoloji araşdırmalar aparılmış,tapılan materiallar əsasında Sakalarla Dərbiklərin daha yaxın olduğu sübuta yetirilmişdir[44]. Yenicə əldə edilmiş arxeoloji materiallar əsasında qətiyyətlə deyə bilərik ki, Saka tayfasının qədim məskunlaşma ərazilərlərindən biri də Gilanın Rudbar rayonu olmuşdur. ***"Amard"*** adlanan onuncu yarımfəsildə qədim dövrdə Gilan bölgəsində məskunlaşmış xalqlarla yanaşı yaşamış Amard tayfası barədə məlumat verilmişdir. Tarixi mətnlərdə "Mərd", "Mard", "Amard", "Mərdus" və "Əmərd" adları ilə qeyd olunmuş bu tayfa Kadusilər və Tapurilərin yaşadığı ərazilərin arasında məskunlaşmışlar[45]. Amard tayfasının keçmişi haqqında əlimizdə dəqiq məlumat yoxdur. Onların haqqında bizə gəlib çatan məlumatlar uzaq

[42] Yenə orada

[43] F.Buzand, III, 71; Ksenefont, V, 3, 24; Herodot, II, 23; Herodot, III, 92; bax:
;بهزادی،رقیه، قوم های کهن در آسیای مرکزی و فلات ایران، تهران:طهوری، ص . 102
; پورداوود،ابراهیم،یشتها،جلد اول ودوم،تهران اساطیر، ص .331
; پورداوود،ابراهیم، ادبیات مزدسینا. بمبئی،انتشارات انجمن زرتشتیان ایرانی ،1309,ص . 53
; ستوده ، م،از آستارا تا استر آباد،تهران، انجمن آثار ملی،1349 ,ص . 140
فخرایی،ابراهیم،گیلان در گذرگاه زمان،تهران :جاویدان، 1354 ,ص . 72

[44] و هحاکمی،علی، یادنامه ی پنجمین کنگره بین المللی باستان شناسی و و هنر فرهنگ,1347 ,ص . 50
هزاره ایران ،تهران: وزارت

[45] ; پیرنیا،حسن، ایران باستان، جلد اول و دوم، تهران: دنیای کتاب، 1373, ص .157
; دیاکونف،ا، م ، تاریخ ماد ، ترجمه کریم کشاورز ، تهران:علمی و فرهنگی ,1377 ,ص . 312
نفیسی،سعید،تاریخ اجتماعی ایران ( در دوران پیش از تاریخ و آغاز تاریخ ) تهران: ,1342 ,ص . 16
دانشگاه

keçmişdə Makedoniyalı İsgəndərə[46], romalılara və parfiyalılara[47] qarşı ardıcıl müharibələr aparması ilə bağlıdır. Lakin bu tayfa da tədricən tarixin "unudulmuş xalqına, tayfasına" çevrildi. Kas tayfasının adı isə gələcək nəsillərə onlardan yadigardır. Onların ari mənşəli olub-olmadığı məsələsi də mübahisəli mövzulardan biridir**.** Amardlar barədə əlimizdə olan məlumatlar Sefidrud çayının şərq hissəsində (Rudbarın dağlıq ərazisində-D.H.) yaşamış Dərbiklər barədə olan məlumatlara nisbətən bir qədər çoxdur. Həmin məlumatların çox olması isə Amardların qəhrəman xalq olduğundan, onlarda cəngavərlik ruhunun çox yüksək olması ilə bağlıdır. ***"Amur"*** adlanan onbirinci yarımfəsildə Amardlardan olan tayfalardan birinin də Amur tayfası olması fikri irəli sürülmüşdür. Təəssüf ki, Gilanda yaşamış Amur tayfası haqqında yazılı mənbələrdə məlumatlar demək olar ki, yox dərəcəsindədir. Amurlar barədə yalnız bu məlumdur ki, onlar üç il Parfiya dövlətinə qarşı vuruşmuşlar[48]. Tədqiqatçıların əksəriyyəti Amurları Mazandaran tayfaları ilə yanaşı vermişlər. ***"Dərbik"*** adlanan onikinci yarımfəsildə isə yazılı mənbələrdə «Dərbik» tayfası haqqında məlumatların az olması qeyd olunmuşdu. Heredot, Ptolomey, Strabon kimi müəlliflər Dərbikləri Massagetlərin qonşuluğunda qeydə almışlar. Onların II Kirlə döyüşü barədə məlumat vermişlər[49]. Həmin tayfanın məskunlaşdığı məkan, onun adətləri və ənənələri haqqında müəyyən məlumatlar da vardır. "Avesta" dövrünün kitablarında Dərbiklər "İran tayfaları" kimi təqdim edilmişdi[50].

Dissertasiya işinin dördüncü fəsli **"Unudulmuş Gilan tayfaları və Gilan ərazisində yaşayan mühacir tayfalar"** adlanır. Bu fəslin özü dörd yarımfəsildən ibarətdi. ***"Anariaklar və yaxud Anarialılar"*** adlanan birinci yarımfəsildə qeyd olunur ki, Gilanda yaşamış xalqların tarixini araşdırarkən bəzən elə tayfa və xalqlara təsadüf edirik ki, onlar barədə qaynaqlarda ətraflı məlumat verilmir. Onlara Babr,

---

[46] ستوده ، م،از آستارا تا استر آباد،تهران، انجمن آثار ملی , ص .1-190;

[47] مشکور،محمد جواد،ایران درعهد باستان،تهران :اشرفی، ص .126-127 ;
فاخته،قربان،تاریخ گیلان پیش از اسلام،رشت: فرهنگ ایلیا,1386 , ص .80-81

[48] فهیمی ،سید حمید،فرهنگ عصرآهن درکرانه های جنوب غربی دریای خزر،تهران: سمیرا ,1381 ,ص . 177

[49] ; اصلاح عربانی،ابراهیم،کتاب گیلان،ج1و2،تهران:گروه پژوهشگران ایران ,ص . 480
; خودزکو،الکساندر، سرزمین گیلان،ترجمه سیروس سهامی،تهران:پیام ,1354 ,ص . 41
; ستوده ، م،از آستارا تا استر آباد،تهران، انجمن آثار ملی ,ص. 56, 166-167
; فرای،ر،ن،میراث باستانی ایران، ترجمه مسعود رجب نیا،تهران: ترجمه و نشرکتاب ,1344 ,ص . 14

[50] Spiegel F. Avesta. Die heilige Schrift der Parsen. Aus zein Grundtext ubersetzt mit Rucksicht auf die Tradition. 1863,75

Anariak və Dokovzinin tayfaları aiddir. Arilərin "İrana" gəlişinin ilk mərhələsində bu bölgədə yaşayan yerli tayfa və xalqlarla qarşılaşmalı, çəkişməli olmuşlar. Uzun çəkmiş bu qarşıdurma bəzən arilərin "İrana" irəliləməsi prosesini, əlbəttə, ləngidirdi. Arilər məğlub etdikləri yerli tayfaların ərazisinə sahib olur, burada məskunlaşır və bu ərazilərdə öz hakimiyyətini bərqərar edirdilər. Yuxarıda adı çəkilən tayfa və xalqların tarix səhnəsindən çıxması ilə əlaqədar olaraq öncə onu bildirək ki, onların hamısının Ari tayfaları içərisində assimilyasiyaya uğradığını güman etmək olar. Ehtimal edilir ki, həmin hadisələr Xəzər dənizinin sahillərində və Gilanda baş vermişdir. Anariaklar, yaxud Anarialılar da "unudulmuş" tayfaların taleyini yaşamışlar. Onların məskunlaşdıqları ərazi şimaldan Utilərin və Albanların yaşadıqları ərazilərlə, şərqdən isə Hirkanilərin yaşadığı ərazi ilə məhdudlaşırdı[51]. Adətən bu tayfaların "yox olmasının" səbəbini onların köçəri Arilərlə qaynayıb-qarışmasında axtarmaq lazımdır. ***"Babrlar"*** adlanan ikinci yarımfəsildə haqqında az bəhs olunan və Gilanda yaşamış tayfa və xalqlar sırasında Babrların xüsusi yer tutmaları vurğulanır. Kaspi (Xəzər) dənizinin cənub-şərq hissəsində məskunlaşmış tayfa və xalqların etnik mənsubiyyəti, onların məskunlaşdığı ərazilər barədə əlimizdə heç bir dəqiq məlumat yoxdur. Ehtimal edilir ki, Babrlar Talışlarla, yaxud Kadusilərlə birgə yaşamışlar. Kolesnikov bu tayfa barədə belə yazmışdır: «Orta əsr müəllifləri Babrları Talış və Gilan arasında, yaxud Deyləm və Talış, yaxud da Muğan və Talış əraziləri arasında yaşadığını qeyd etmişlər».[52] ***"Dokovzininlər, Anarilər və Aniranilər"*** adlanan üçüncü yarımfəsildə Xəzər dənizinin sahillərində, Gilan bölgəsində yaşamış "Dokovzinin" adlı digər bir qədim tayfa barədə tarixi məlumat və sənədlərin olmaması nəzər diqqətə çatdırılır. Yalnız bunu bilirik ki, onlar Gilanda məskunlaşmış digər xalqlarla birlikdə yaşamış tayfalardan olmuşlar. Tarixi mətnlərdə "Anariakilər" və yaxud "Anarialılar" adına oxşar digər bir tayfaya da rast gəlinir. Bu tayfa tarixə "Anarilər" adı ilə düşmüşdür. "Anarilər" sözünə antik yunan yazılı qaynaqlarında da rast gəlmək olur. Yunan coğrafişünası Strabon, Erestofenin məlumatına istinadən Aniranilərin adını Hirkanilərlə, Amardanlarla, Kadusilərlə, Kaspilərlə və Utilərlə birgə çəkmişdir[53]. Beləliklə, Aniranilər tayfası elə həmin Anariakilər

---

[51] 47. دیاکونف،ا، م ، تاریخ ماد ، ترجمه کریم کشاورز ، تهران:علمی و فرهنگی، ص
[42] 165.ص, 1357،کولسنیکف،آ،ای،ایران درآستانه ی یورش تازیان،ترجمه یحیایی،تهران:اگاه
[53] 36. پناهی،عباس،تاریخ و جغرافیای تاریخ دیلم خاصه.انتشارات آیین آل محمد ، ص

və yaxud Anarialılardırlar. Bəzi tədqiqatçıların Anarialıları "qeyri-ari dilində danışan tayfa" hesab etməsinə və yaxud onların "qeyri-ari olduğunu" bildirməsinə baxmayaraq, hər halda ehtimal edilir ki, hər iki tayfa eyni xalqa mənsub olmuşdur. ***"Məskunlaşmış tayfalar: Kürdlər, Türklər, Lurlar, Rəşt tayfaları"*** adlanan dördüncü yarımfəsildə isə XVII əsrdən başlayaraq Gilan torpaqlarına köçərək burada məskunlaşmış tayfalar arasında kürdlərdən bəhs etməyin vacibliyi qeyd olunur. Kürdlərin indi yaşadıqları ərazi şimal tərəfdən Deyləman, Rəhmətabad, qərbdən Tarom, cənubdan Qəzvin, şərqdən Rudbar, şimal-şərqdən Əşkvərlə hüdudlanır[54]. Gilanın bu hissəsi artıq kürdlərin vətəninə çevrilmişdir. Bu gün Sefidrud çayının şərq hissəsindəki dağlıq ərazi Nadir şah Əfşar (1736-1747) tərəfindən buraya köçürülmüş kürd tayfasının adı ilə Amarlu adlanır[55].

Erkən orta əsrlərdə Türk tayfalarının Gilan bölgəsinə nə zaman daxil olduğuna dair dəqiq məlumat yoxdur. Yalnız bu məlumdur ki, türk tayfaları Mərkəzi (Orta) Asiyadan yeni ərazilərə, o cümlədən Gilana Sasanilər dövründə, (eramızın VI yüzilliyində) daxil olmuşlar. Hal-hazırda Türk əhalisinin sıxlığı daha çox Gilanın şimal-qərb, qərb və cənub- qərb hissələrində müşahidə edilir. Yəni, türk əhalisinin sıxlığı daha çox Astara məntəqəsindən Həştpərə, Əsalimə, Xalxala, Taroma, Məncilə və Luşana qədər olan ərazilərdə müşahidə edilir.

Gilanda Lurların sayı olduqca azdır. Gilanın cənub-qərb ərazilərində vaxtilə yaşamış bir neçə lur tayfası barədə çox qısa məlumatlar istisna olunmaqla onlar barədə əlimizdə dəqiq məlumat yoxdur. Rəşt bölgəsində "Hacı Səmi" və "Omşə" adlanan iki əsas tayfa mövcud olmuşdur. "Hacı Səmi" tayfasının adı Təbrizdən Rəştə gəlmiş Hacı Səmi adlı şəxsin adından götürülmüşdür. Omşə tayfasının adı isə Omşə adlanmış məntəqədən olan adlı-sanlı bir şəxsin (Hacı Ağacaninin-D.H) yadigarıdır. Omşə kəndinin idarəçilik işləri ona tapşırılmışdı. Sonralar onun "bəylərbəyi" titulunu almış "Əli Əkbər" adlı oğlu xeyli sərvət əldə etmişdi. O, bu sərvətini Ənzəli gömrüyündən və İranın digər Xəzəryanı gömrük məntəqələrinin icarəyə verilməsindən qazandığı pullar hesabına artırmışdı.

**"Nəticə"**də tədqiqatın başlıca ümumiləşdirilmələri, dissertasiyanın əsas yekunları öz əksini tapmışdır.

[54] خودزکو،الکساندر، سرزمین گیلان،ترجمه سیروس سهامی،تهران:پیام، 1354, ص . 42,79

[55] شی یرا ،ادوارد،الواح بابل، ترجمه علی اصغر حکمت تهران: علمی-فرهنگی، ص . 303 ; فاخته،قربان،تاریخ گیلان پیش از اسلام،رشت: فرهنگ ایلیا، 1386, ص . 32

***Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:***

1-Hidayətifərd D**.** Kaspi tayfalarının tarixindən / Azərbaycan Dövlət pedaqoji Universitetinin Xəbərləri**,** 2013, №3, s.146-149

2-Hidayətifərd D**.**Kadusilər tarixi araşdirmalarda / Bakı Dövlət Universitetinin"Tarix və onun problemləri" jurnalı, 2013, №3, s.292-296

3-Hidayətifərd D**.**Tatların Azərbaycan ərazisində məskunlaşma tarixinə dair / Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri**,** 2014, №2, s.145-147

4-Hidayətifərd D**.** Talışların etnik tarixinin öyrənilməsinin bəzi aspektləri / Bakı Dövlət Universitetinin "Tarix və onun problemləri" jurnalı, 2014, №1, s.291-294

5- History for Gilan tribles in the ancient time. / Хабаршы. Казахский национальный Университет имени Аль-Фараби. Серия историческая. 2014, №3 (74), s.133-138

6- Hedayatifard. D. The Etymology of Gilaki Words / Russian State University for the Humanities. Moscow, 2006 , p.104-121.

7- Hedayatifard D. The Origin of Sumerian / Moscow Institute of Oriental Studies. Moscow, 2009, p.133-139

**ДИРАХШАН ХИДАЯТИ**

# ИСТОРИЯ ГИЛАНСКИХ ПЛЕМЕН
# ( С ДРЕВНИХ ВРЕМЕН ДО НАШИХ ДНЕЙ)

## РЕЗЮМЕ

Настоящая диссертация состоит из четырех глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы, определено ее научное значение, указана научная новизна и практическая ценность темы.

Первая глава диссертационной работы называется «История Гилана до Рождества Хрестова(до н.э.- Д.Х.)». Данная глава состоит из четыех частей. В первой части рассказывается о рукописных источниках о жизни племен, проживших в Гилане и его окрестностях. Вторая часть посвящена географическому и природному положению Гилана. Третья часть посвящена Гиланским племенам эпохи Мидия и Ахаманидов. В четвертой части рассказывается о Гиланских племенах эпохи империи Асканидов(Парфянских Аршакидов).

Вторая глава диссертации называется «Гиланские племена после Рождества Хрестова» и состоит из девяти глав. Первая часть посвящена эпохе Сасанидов. Во второй части рассказывается о нашествии арабов в Гилан и изучении созданных в результате этих нашествий правительств. В третьей части отражен период Сельджукидов и Газнавидов. Четвертая часть посвящена эпохе монголов в Гилане. В пятой части изучается события в период Сефевидов. Шестая часть посвящена эпохе Афшаридов и Зандов в Гилане. В седьмой части рассматривается период Гаджаридов. Восьмая часть посвящена состоянию Гилана в эпоху Пехлевидов. Девятая часть охватывает период от августовской переварота 1953-го года до исламской революции.

Третья глава диссертационной работы называется «Гиланские племена». Эта глава состоит из двенадцати глав. Первая часть посвящена теме Гильских племен. Вторая часть – племенам Гал, третья часть – изучению каспийцев, четвертая часть – дейламидам, пятая – татам, шестая кадуситам, седьмая – талышам, восьмая – марликидам, девятая – Сакам, десятая – амардам, одиннадцатая – амуридам, двенадцатая - дарбикидам.

Четвертая глава диссертации называется «Забытые племена Гилана и племена-мигранты», которая состоит из четырех частей. В первой части рассмотрена тема об анарякидах или анарийцев. Вторая часть посвящена забытому историками племени Бабридов. В третьей части рассказывается о доковизинах, анарийцах, анарианах. В четвертой части изучены племена мигранты – курды, турки, луры, раштские племена, прожившие в современном Гилане.

В заключении сформулированы основные выводы и обобщения, вытекающие из проведенного исследования.

В конце представлен список литературы, использованной в исследовательской работе.

**Derakhshan Hedayatifard**

# THE HISTORY OF GILAN TRIBES FROM ANCIENT TIMES TO THE CONTEMPORARY

## SUMMARY

The thesis consists of an introduction, four chapters, conclusion and bibliography.

The actuality of the investigation is shown in the introduction, the history and the object of the investigation is studied, the scientific methodology, aim and scientific innovations are also investigated.

The first chapter of the thesis called "the History of Gilan in the BC" consists of four parts. The first section is dedicated to the information on the resources and manuscripts about Gilan and its tribes. In the second part, the geographical and natural location of Gilan is addressed. In the third part, Gilan tribes in the period Median and Achaemenid dynasties are talked about. In the four section of the thesis, Gilan tribes during the Parthian Empire are addressed.

The second chapter of the thesis colled "Gilan tribes in the AD" consists of nine parts. In the first part, Sassanian period is addressed. In the second section of the chapter, Gilan history on the Arab invasion and the governments formed by such attacks on the territory of Gilan is examined. The third part is dedicated to the history of Gilan during the Ghaznavids and Seljuks. Part four refers to the date of Gilan in the Mongol period. Part five discusses the history of Gilan in the Safavid period. In the sixth section, the history of Gilan in Afsharid and Zand period is addressed. The seventh section gives information about the history of Gilan during the Qajar period. The eighth section is dedicated to Pahlavi, and the last part of the chapter i.e. the ninth section discusses the history of Gilan from the twenty-eighth Mordad coup to Islamic Republic Revolution. The third chapter of the thesis called "Gilan tribes" consists of twelve sections. Gil tribe has been studied in the first section. The second part contains the tribe Gal. The third part is dedicated to the cusps. The fourth part has been paid to the Deylaman tribe. Part five addresses Tats. Part six includes Cadusii. Part seven addresses. Part eigth discusses Marlik tribe. Part nine is dedicated to the Scythians. Part ten also deals with the Amard tribe. The eleventh part pays attention to Amors, while the twelfth section is dedicated Derbik tribe.

Chapter four of the thesis is called "forgotten tribes and immigrant tribes in Gilan" and consists of four parts: the first section addresses An Ariakian or Aryan tribes. The second part is dedicated to Babr tribe that has been forgotten in the history of Gilan. The third part addresses Dekoznin, Anaryan, and Anyranyan tribe. The fourth section is dedicated to immigrant tribes in Gilan such as, Lor, Turk, and Rashty. In the conclusion the results are summarized and the future directions of the investigated subject are shown.

Formatı: 60x84 1/16. F.ç.v. 1.75.

Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ДИРАХШАН МАГАММЕДАЛИ ОГЛЫ**
**ХИДАЯТИФЕРД**

# ИСТОРИЯ ГИЛАНСКИХ ПЛЕМЕН
# (С ДРЕВНИХ ВРЕМЕН ДО НАШИХ ДНЕЙ)

**Специальность: 5502.01 – Всеобщая история**

# АВТОРЕФЕРАТ

Диссертационной работы, представленной
на соискание ученой степени доктора
философии по истории

**БАКУ – 2016**